## *Mövzu 2.* QENDER VƏ SİYASƏT PROBLEMİNİN SOSİAL-SİYASİ FİKİR TARİXİNDƏ ƏKS OLUNMASI

1. *«Qender», «siyasət» və «siyasətdə qender bərabərliyi» anlayışlarına yanaşmaların və konsepsiyaların müxtəlifliyi*
2. *Antik dövrdən XIX əsrə qədər «Qender və siyasət» probleminin sosial-siyasi fikir tarixində əks olunması*
3. *XIX-cu əsrdə kişi və qadınların sosial mövqeyinin bölünməsində təsəvvürlərin inkişaf etməsi*
4. *Azərbaycanın sosial-siyasi fikir tarixində siyasətin qender aspektləri*
5. *Müasir dövrdə cəmiyyətin inkişafında qender siyasətinin həyata keçməsi*

### 1. «Qender», «siyasət» və «siyasətdə qender bərabərliyi» anlayışlarına yanaşaların və konsepsiyaların müxtəlifliyi

«Qender» anlayışı müxtəlif təsnifat və yanaşmalara malikdir. Bu gün «qender» sosial münasibətlərin ən vacib hədlərindən biri kimi başa düşülür və buraya üç qrup xarakteristika daxildir: bioloji cins, cins stereotipləri, həmçinin «qender display» – cəmiyyətdə qəbul edilmiş kişi və qadınların davranış normaları və onların təzahürünün bütün müxtəliliyinin qarşılıqlı əlaqələri.

Qenderin ilk tərifi qadınların müasir cəmiyyətin feminist tənqidi ilə əlaqədardır, yəni qadınların diskriminasiya vəziyyətinin tənqidi. Məlumdur ki, o ilk dəfə antropoloq Qeye Rubinin qadınların tayfalar arası dəyişdirilməsi haqqında yazdığı «Qadınların dəyişdirilməsi: «cinsin siyasi iqtisadiyyatı» haqqında qeydlər» (1975) məqaləsində yaranır və orada qender «bioloji cinsin ictimai fəaliyyətini tənzim edən razılıqların kompleksi» kimi müəyyən olunur.

Amerika sosioloqu Entoni Qiddens öz dərsliyində (1989) cins və qender arasında hədd çəkir. O yazır: «Əgər cins qadın və kişilər arasında fiziki fərqlərə aiddirsə, onda «qender» onların psixoloji, sosial və mədəni xüsusiyyətlərinə toxunur».

Patriarxat cəmiyyətlərdə klassik ənənəvi cins nəzəriyyəsi çərçivəsində sosial fərqlər əvvəlcə seçilmirdi və qadın, bir qayda olaraq, ümumiyyətlə «siyasi heyvan» kimi hesab olunmurdu. Qender konsepsiyasında dönüş Simona de Bovuarın «İkinci cins» (1949) kitabı ilə bağlıdır, burada qadının özünü qiymətləndirilməsi və özünü dəyyərləndirilməsi əsaslandırılır.

Qender – təbiət tərəfindən möhkəmlənmiş varlıq deyil, sosial reprezentasiyanın məcmusudur. Qender – cinsin mədəni iç üzüdür, bu hazırki cəmiyyətdə sosiomədəni təsəvvürlərin çərçivəsində olan qadın ya da kişi haqqında fikirlərdir. Hətta, cins də elə yalnız qenderdir, yəni sosiallaşma prosesində cinsin yaranmasıdır. Qender identifikasiyası şəxsiyyətin sosiallaşma prosesində, yəni qender rollarının öyrənilməsi ailə, təhsil və siyasət kimi sosial institutların sosial-mədəni təsirindən baş verir.

Ümumiyyətlə, cins və qender probleminə, XX əsrdə bir çox fəlsəfi problemlər üçün xarakterik olan, iki əsas yanaşmadan danışmaq olar: essensialist və konstruktivist. Fəlsəfiləşmənin birinci tipi obyektiv reallığın təbiəti haqqında, ruh və materiya, subyektiv və obyektiv, qadın və kişi və s. ilə bağlı suallar verir. Kantın fəlsəfəsinin dərinliklərdən meydana çıxmış ikinci tip, dünya haqqında sualları onun subyektiv təsəvvürlərə keçirir.

«Siyasət» anlayışı müxtəlif vasitələrlə interpretasiya oluna bilər. Buna görə də «Qender və siyasət» probleminə bir neçə cür yanaşma mövcuddur.

Baxmayaraq ki, ilk baxışdan «siyasət» «fəlsəfə» kimi fəaliyyətin qenderli neytral sahəsi görünsə də, siyasət dövlət, hakimiyyət haqqında bütün ənənəvi elmi təsəvvürlər siyasətdə kişilərin iştirakı üsulların təsviri kimi hesab oluna bilər. Tarix və politologiya siyasətdəki görkəmli qadınların ağıl, iradə, müttəfiqlər qazanmaq bacarığı, xalq arasında məşhurlaşmaq kimi şəxsi keyfiyyətlərinə böyük diqqət yetirirsə də, onlar siyasi

karyeralarında hər hansı bir «hadisənin» ya da «əmələ gəlməsin» xüsusi rol oynadığını qeyd edirlər.

Siyasətin qender aspektinə digər bir yanaşma mövcuddur ki, bu da demokratiya və ümumi seçki hüququ ideyasının yayılması dövrünə aid edilir. O, kişilərdən fərqli olaraq qadın-seçicilərin siyasi davranış təhlilinə, fərqli qadın siyasi psixologiyasına və qadınların müxtəlif siyasi institutlara münasibətinə əsaslanır.

Siyasi elmə fəal feminist hərəkatı hesabına daxil olan daha bir yanaşma mövcuddur. Bu yanaşma siyasi təşkilatlar, ideyalar və iştirakçıların təhlilin əsaslanması ənənəvi «kişi» siyasətinə qarşı durur və qadınların xüsusi maraqlarını qrup halında müdafiə edir.

## 2. Antik dövrdən XIX-cu əsrə qədər «Qender və siyasət» probleminin sosial-siyasi fikir tarixində əks olunması

Qender tədqiqatları müasir humanitar elmlərin yeni bir istiqamətidir. Qender nəzəriyyəsi kateqoriya aparatı, qender təhlili, XX-ci əsrin son onilliklərində fəal inkişaf etməyə başladı. Lakin qender tədqiqatlarının inkişafı üçün özül onların bir elm olaraq formalaşmasından qat-qat əvvəl mövcud idi. Qender problemi, o cümlədən «Qender və siyasət» problemi antik dövrlərdən bizim günə qədərki alim-filosofların, antropoloqların və sosioloqların əsərlərində öz əksini tapmışdır.

Bu problemin əks olunduğu ən qədim mənbə – miflərdir. Mifologiya cinslər arasındakı ciddi tabeçiliyi qeyd edir: kişi – mükəmməl insan, tarixin subyekti, kişi cinsinə aid olan varlıqdır; qadın – qadın cinsinə aid olan varlıq, ərinin arvadı, onun – nəslin, özü də varisliyin kişi xətti ilə keçdiyi patriarxal nəslin hökmranlıq obyektidir. Burada ideal prinsip – «qadın ərindən qorxmalıdır» sayılır. Qorxur – tabe olur, onun öz üzərində hökmranlığına razılaşır. Kişinin qadın üzərində bu hökmranlığı patriorxal hakimiyyət kimi müəyyən olunur. Həmin prinsipə əsasən, kişi və qadın bir bir ilə əlaqəsi olmayan və ziddiyyət təşkil edən iki başlanğıcdır; birincisi – əsas, müsbət, fəal başlanğıc; ikincisi isə – törəmə, passiv başlanğıcdır.

Təxminən 5-7 min il əvvəl, sosioloqların «ənənəvi» cəmiyyət kimi müəyyənləşdirdiyi ictimai təşkilat növünün meydana gəldiyi vaxtlar patriarxat – kişi və qadın arasında qanunlaşdırılmış münasibətlər sistemi idi. Bu sistem kişiyə hakimiyyətin subyekti kimi istisna hüquq verir, qadına isə yalnız obyekt kimi yanaşırdı. Lap əvvəlcədən kişi ailədə, siyasətdə bölünməz hakiiyyətə sahib olmağ, öz qəbiləsinin, nəslinin, ölkəsinin taleyini həll etmək, müxtəlif səviyyələrdə qərar qəbul etmək, incəsənətdə, mədəniyyətdə üstünlüyə malik olmaq imkanını qazanmışdır.

Ənənəvi cəmiyyətin ilkin mərhələlərində, xüsusən də quldarlıq şəraitində, qadın «ərinin – arvadı üzərində xüsusi mülkiyyət hüququna malik olaraq, ondan özünün digər şəxsi əşyaları kimi istifadə edən ailə başçısının qulu» idi. Qədim Romanın bəzi tarixi dövrlərində kişi arvadının həyat və ölüm məsələlərini də həll etmək hüququna malik idi. Ərinə xəyanətdə təqsirləndirilən qadını ölüncəyə kimi çubuqla və daşla döyə, sirkdə vəhşi heyvanlara yem kimi ata bilərdilər. Qədim hind Manu kodeksində elan olunmuşdu ki, «Uşaqlıqda qadın öz atasına, gənclikdə – ərinə, onun ölümündən sonra isə – öz oğullarına tabe olmalıdır». Platon Tanrıdan razılıq edirdi ki, onu qul yox, azad yaradıb, qadın yox, kişi edib; eyni zamanda o, qadının ölkənin siyasi həyatında iştirak imkanını inkar etməyən az sayda insanlardan biri idi.

Bilavasitə qender və siyasət probleminin antik və orta əsr müəlliflərinin əksərinin əsərlərində bir başa əksini tapmaması onunla bağlıdır ki, qadın cəmiyyətin siyasi həyatında iştirak hüququna malik vətəndaş olaraq nəzərdən keçirilmirdi. Qadının cəmiyyətdəki vəziyyətinə dair bir çox filosofların mövqeyi ilə tanışlıq siyasi institutlarda qadının bərabər nümayəndəliyi probleminin qoyuluşu, qadınların siyasətdə iştirakının fəallaşması məsələsinin ağlasığmaz olmasına dəlalət edir. Məsələn, Pifaqor özünə əminliklə deyirdi: «Mövcud olan müsbət prinsip qayda-qanunu, işığı, kişini; mənfi prinsip

isə qarışıqlığı, toranlığı və qadını yaradıb». Aristotel isə öz növbəsində izah edirdi: «Qadın – müəyyən keyfiyyətlərin çatışmazlığı üzündən dişi sayılır... qadın xarakteri təbiətdən alçaldılmışdır... qadın yalnız materialdır... başqa, daha yaxşı, ilahi, kişi başlanğıcı isə hərəkət prinsipini təmin edir».

Xristian dini qadının üstündən onun «əcinnə»liyə, qarışıqlığa, gecəyə, yaman ruhlara (miflərin əksəryyətində qadın məhs belə təsvir olunur) aid olmasına dair şüphələri qismən götürərək elan etdiki, insanın həyatı və ölümü «yaman» qadın təbiyyətindən deyil, Yaradanın iradəsindən asılıdır. İlkin xristian mətnlərində cəmi bir neçə qadın obrazına (Məryəm Ana, Mariya Maqdalina, Marfa) rast gəlmək olur.

Xristian dini mənəvi, işıqlı və əbədi qadınlıq mücəssiməsi olan Maryəm Ana obrazını göylərə qaldırır. Lakin Orta əsrlərdə xristian ideyalarının yayılması qadının cəmiyyətdəki və o cümlədən, ölkənin roluna baxılmasına elə bir təsir etmədi. Rəvayətə görə Həvvanın Adamın qabırğasından yaradılması barədə mifin təsiri daha güclüdür. Həvvanın yaradılması haqda konsepsiya onu hərtərəfli, yaxud avtonom bir varlıq kimi nəzərdən keçirməyə imkan vermirdi. Belə ki, Orta əsrlərdə yaşamış Foma Akvinski adlı müəllif qadını «formalaşmamış kişi, törəmə varlıq» hesab edirdi.

Humanizm, liberalizm və maariflənmə ideyalarının inkişafı cəmiyyətdə və siyasətdə kişi və qadının sosial rolu haqda təsəvvürlərin dəyişməsinə mühüm dərəcədə təsir göstərməli idi. Amma nə alman, yaxud italyan humanistlərinin, nə də liberalizmin bir çox nümayəndələrinin əsərlərində qadının kişi ilə bərabərhüquqlu insan olaraq nəzərdən keçirilməsi imkanı təsdiq edilmirdi. Məşhur «İkinci cins» əsərinin müəllifi, tanınmış fransız filosofu Simona de Bovuar qeyd edirdi ki, «kişi cinsinə aid fərd daha güclü fərdiləşdikçə, kişinin bu fərdiləşmə ehtiyacı artdıqça, o öz rəfiqəsinində fərdilik və azadlıq hüququnu qəbul edəcəkdir».

Müxtəlif sivilizasiyalar, mədəniyyətlər, texnika və texnologiyalar, səhiyyə və təhsil cəmiyyətin ehtiyacını dəyişdirdi. İndi o kobud gücdən, aqressivlikdən, təzyiqdən daha çox intellektə, intuisiyaya, mədəni vərdişlərin təkmilləşməsinə – azad şəxsiyyətə və onun işgüzarlığına; bir az sonra isə həm kişi, həm də qadının kütləvi işçi qüvvəsinə daha çox ehtiyac duymağa başladı. «Azadlıq, bərabərlik, qardaşlıq» üçlüyünə keçirilmiş demokratiya idealları həmin ehtiyacları qeydə alır və yeni davranış normaları diqtə edən yeni dəyərlər kimi nəzərə çatdırır.

Artıq XII-XIV-cu əsirlərdə yeni müəmmalı qadın fiqurları, romanın cənubunda xristian elminə dair özünün xüsusi şərh hüququnun olmasını, özünün messanlığını elan edən kafir qadınlar meydana çıxır. Sonrada isə siyasi həyata və elmin inkişafına böyük diqqət yetirən ilk yazıçılar, aktrisalar ardınca – yüksək təbəqəyə aid xanımlar və məşuqələr yaranır. XVI-cı əsrin əvvəlində «Qadın cinsinin alicənablığı və kişi cinsi üzərində üstünlüyünə dair Deklamasiya» əsərinin müəllifi Korneli Aqrippa oxucusunu inandırırdı ki, qadının təbii qabiliyyəti kişidən heç də az mükəmməl deyildir, onlar sadəcə olaraq – bir başqadır. XVII-ci əsrdə qadının cəmiyyətdəki vəziyyəti barədə nəzəri mübahisə genişlənir. Qadına ənənəvi yanaşmanı inkar edən və onun da kişi kimi mükəmməl insan sayılmaq hüququnu əsaslandıran ciddi əsərlər yaranmağa başlayır.

Qadın hüquq bərabərliyinin tərəfdarı Pulen de Iya Barr özünün «Hər iki cinsin bərabərliyi» essesində isbat edirdi ki, cinslərin bərabərsizliyi qadının kobud kişi gücünə tabe olmasının nəticəsidir, təbiətin yazdığı qanun yox.

Maarifçilər əsasən bu yanaşmaya tərəfdar idilər. Volter qadın taleyinin ədalətsizliyini ifşa edir; Didro qadının alçaldılmış həyatını müəyyən mülki qanun və adətlərin nəticəsi sayır; Monteskye qadının ictiami həyatda iştirakını məcburi hesab edir; Helvetsi qadının vətəndaş maarifsizliyini onun tərbiyəsinin çatışmamazlığı, yaxud da belə tərbiyənin heç olmaması ilə bağlayırdı. Qadının üzvi surətdə kişiyə bərabər ola bilməyən ikinci dərəcəli bir varlıq olması barədə mifin absurdluğunu ifşa edən maarifçilər eyni zamanda onun vətəndaş varlığını – tarixin subyekti rolunda çıxış etmək, ölkənin

siyasi həytında iştirak etmək bacarığını qəbul etməkdən kənar idilər. Hətta «təbii hüquq» ideyasına əsaslanaraq bunu qəbul etmirdilər.

Burada eqalitarizm məktəbinin başçısı, məşhur «azadlıq və hüquq müdafiəçisi» J.J.Russonun rolu xüsusi qeyd olunmalıdır. «Təbii hüquq» ideyasını qadına münasibətdə inkişaf etdirərək Russo onun tərkibinə cinsin «təbii vəzifəsi» haqqında mif əlavə etdi və bununla da kişi və qadın arasında əvvəlki seksual bölümün uzun müddət üçün möhkəmlənməsinə səbəb oldu.

Amma inqilab ərəfəsi dövrü üçün bu az idi. Qadın onun ölkəsində ənənələrə qarşı çıxmaq və bütün dünyaya «Mən varam və cəmiyyətdə olan yerimə iddiaçıyam» deməyə hazır olan bir insan kimi formalaşmışdı. Xüsusi dekret gözləmədən qadın özünü azad və bərabər-hüquqlu hesab etməyə başlamışdı. Tarixçi və romanist D.Qodino yazırdı ki, Böyük fransız inqilabının əvvəlində formal təsdiqin olmamasına baxmayaraq qadınlar cəmiyyətin həyatında az iştirak edirdilər: çox sayda qadın özü üçün işləyir və iqtisadi müstəqilliyə malik idi; aşağı təbəqədən olan qadınlar azad olaraq kütləvi tədbir keçirilən yerlərə gedir, yüksək təbəqəyə aid olanlar öz salonlarından saray həyatını idarə edir, tək paltar deyil, həmçinin ideya dəbini diqtə edirdilər.

Bir çox sənədlər sübut edir ki, inqilabın ilk günlərindən fransız qadınları onlara siyasi hüquq verilməsini tələb edirdi. Baş Ştatların onların iştirakı olmadan çağırılmasına qarşı çıxan «Fransız qadınlarının protesti», «Fransız qadınlarının nalə və öyüdləri» belə yarandı. Həmin sənədlərdə fransız qadınları özlərini güclü cinsə qarşı qoymur, amma öz hüquqsuzluqlarına diqqət yetirirdilər. Onlar özlərini millətindən ayırmır və inqilabdan «azadlıq, bərabərlik, qardaşlıq» prinsiplərinin onların həyatını dəyişdirəcəyini gözləyir, öz vətəndaşlıq mükəmməlliyinin qəbul edilməsini tələb edirdilər. İnqilabın əsas sənədi olan «İnsan və vətəndaşın hüquq Deklarasiyası»nda deyilirdi: «Bütün insanlar azad və bərabərhüquqlu doğulur...» Buradakı «les hommes”, «insanlar» (fransızca isə “l`homme” eyni zamanda həm «insan», həm də «kişi» deməkdir; amma «qadın» yox) iki cür məna daşıyırdı. Aydın idi ki, hamının qəbul etmiş olduğu «azad» və «bərabər» kateqoriyasına yalnız kişilər aid edilir, qadınların da oraya düşüb-düşməməsi naməlum olaraq qalırdı. İnqilab qanunvericiləri qadınların «azad» və «bərabər» kateqoriyasına daxil ola bilmək hüququnu da qəbul edə bilmirdi. Və əvvəl səssiz, sonra isə açıq-aydın, hüquqi cəhətdən sənədləşdirilən imtina tamamilə yeni ictimai hadisənin, feminizmin (fransızca “femme” – «qadın») – qadının siyasi və mülki hüquqlarını müdafiə edən hərəkatın yaranmasına apardı. Onun yaradıcıları sırasında fransız Olimpiya de Qujun, ingilis Meri Uollstonkraftın, amerikalı Abiqayl Adamsın adlarını çəkmək olar. Lakin şübhəsiz ki, feminizmin ilk sənədi Olimpiya de Qujun 1791-ci ildə çapdan çıxmış «Qadının və vətəndaşın hüquq Deklarasiyası» oldu. «Deklarasiya»nın həm başlığı, həm də məzmunu qadının mükəmməl insan sayılmaq hüququnu qəbul etmək istəməyən və buna şübhə ilə yanaşanlara meydan oxuyurdu. De Quj burada qadının azadlıq, mülkiyyətə sahiblik, istilaya müqavimət kimi əsas mülki hüquqlarını, kişidən heç də azqabiliyyətli olmadığını elan edirdi. De Qujun «Deklarasiyası» cəmiyyətdə böyük narazılığa səbəb oldu, əsasən də onun sonradan zərbi-məsələ çevriliş bir cümləsi: «Əgər qadının eşafota qalxmaq hüququ varsa, onun tribunaya da qalxmaq hüququ var». 1793-cü ilin noyabrında Olimpiya de Quju yalançı çuğulçuluqla gilyotinə göndərdilər. Həmin ildə Konstitusiya hazırlanarkən «fəal» və «passiv» vətəndaşlara dair mövzu olduqca canlı müzakirə edildi. Lakin yeni Konstitusiya da qadını heç bir istisnasız siyasi hüquqlardan məhrum etdi.

1793-cü ildə noyabrında Konvent bütün qadın klub və assosiasiyalarının bağlanması barədə qətnamə qəbul etdi. 1795-ci ilin yazında qadınların hər hansı siyasi iclasda iştirak etmək, ümumiyyətlə ictimai yerlərdə qrup şəklində toplaşmasını qadağan edən daha sərt dekret dərc olundu. 1804-cü ildə Napoleonun Vətəndaş kodeksi açıqlandı ki, burada qadının heç bir vətəndaş hüququ olmadığı və ərinin himayəsi altında olması elan edilirdi.

### 3. XIX əsrdə kişi və qadınların sosial mövqeyinin bölünməsində təsəvvürlərin inkişaf etməsi

XIX əsrin 30-cu illərindən başlayaraq Qərbi Avropa ölkələrində kapitalizmin güclü inkişafı onların ənənəvi sistemini mühüm dərəcədə dəyişdirdi. İri sənaye yarandı, kəndlilərin də məskən salmağa başladığı iri şəhərlər mərkəzləşdi, peşə əməyi parçalandı və s. Sənayenin tərəqqisi kiçik təsərrüfatların müflisliyinə, ənənəvi ailə əlaqələrinin dağılmasına, şəhərdəki səfalətin ona xas olan fahişəliklə, kəbindən kənar doğulmuş uşaqlarla, atılmışlarla, abortlarla və uşaq ölümü ilə birlikdə artmasına gətirib çıxarırdı. Kütləvi şəkildə muzdlu qadın əməyinin yaylması ən aşağı təbəqədən olan şəhər cəmiyyətində ailə böhranı ilə müşaiyət olunurdu. Bundan başqa, əmək bazarında qadın kişinin rəqibinə çevrilir və bununla da cinslər arasındakı sosial münasibətlərin gərginliyi artırdı.

Mahiyyətçə XIX əsr qadınlar üçün ziddiyyətli qanunvericilik aktlarının çəkdiyi sərhəddəki, onun şəxsiyyət (subyekt), vətəndaş, cəmiyyətin mükəmməl üzvü olmaq hüququnun qəbul olunması ilə bunun rədd edilməsi arasındakı sosial eynilik axtarışıdır. Yazıçı, filosof, amma heç də feminist olmayan Jermena de Stal 1800-cü ildə yazırdı: «Qadının cəmiyyətdəki varlığı heç bir prinsiplə müəyyənləşdirilməyib: nə təbii, nə də sosial qaydalarla».

Konservator L. de Bonald və J. de Mestradan liberal M.Mişleyə kimi –hər cür ideoloq, filosof və tarixçilər Kodeksin qadınların vəziyyətinə dair maddəsini dəstəkləyir və qadının vətəndaş kamilsizliyindən danışırdı. Onlar ənənələri yada salır, «cinsin təbii vəzifəsi», «qadının əqli məhdudiyyəti» haqda təsəvvürə köklənmiş köhnə qaydalara əsas tuturdular. Onların gözündə qadın analıq vəzifəsi ilə yüklənmiş, tez-tez xəstələnən, incə, əsəbi və isteriyaya meyilli; ictimai yerlərdə, iclasda, mitinqdə, kütlə arasında nəzarətdə saxlanması mümkün olmayan təhlükəli məxluqlardır. Yalnız bir neçə insan buna şübhə ilə yanaşdı, məsələn, Şarl Furye 1808-ci ildə özünün «Dörd hərəkatin nəzəriyyəsi» adlı əsərində yazırdı: «Bütövlükdə tərəqqi və tarixi mərhələlərin bir-birini əvəz etməsi qadının azadlıq yolu ilə irəliləməsi nəticəsində baş verir; sosial qaydaların tənəzzülü isə qadın azadlığının azalması deməkdir. Qadın azadlığının genişlənməsi hər hansı bir sosial tərəqqinin ümumi prinsipidir». Furye özünün Harmoniya adlandırdığı gələcəyin cəmiyyətini insana nifrət və həqarətlə dolu mövcud Sivilizasiya qaydalarına qarşı qoyurdu. Onun layihəsində Harmoniya quruluşu hamının – kişi, qadın və uşaqların qarşılıqlı hörmət və bərabərliyi münasibətlərinə əsaslanırdı.

Digər bir utopistin, şagirdlərinə müəmma dolu «Kişi və qadın – sosial fərd bax budur» kimi ibarə qoymuş Anri de Sen-Simonun ardıcılları ictimai inkişaf nəzəriyyəsi işləyərək onu «yeni xristianlıq» adlandırdılar. «Yeni xristianlığın» başlıca ideyası yeni pozitiv bilik əsasında yaxınlara sevqi - xristian moizəsinin yenidən canlandırılması idi. Bu moizə bütün bəşəriyyətin sülh şəraitində yenidən qurulmasını təmin etmək və kobud güc nüfuzunu, təcavüz və militarizmi bilik, incəsənət nüfuzu ilə əvəz etmək məqsədi güdürdü.

Əsas məsələdə – qadının azadlıq, emansipasiya ideyasında Sen-Simonun şagirdləri yekdil idilər. «Yeni» qadın onlar üçün bəşəriyyətin mənəvi sağlamlığının qarantı idi. Lakin bunun üçün vasitənin seçilməsində onlar arasında fikir ayrılığı mövcud idi. Elə bu məsələ də Sen-Simon məktəbinin əvvəl parçalanmasına, sonra isə dağılmasına səbəb oldu.

Furye və Sen-Simonun təklif etdiyi ictimai həyatın harmoniyasına dair ideal layihələr bu nəhəng sosial hərəkəti hiss etmək, həmin prosesi təshih etmək cəhdi ilə diqtə olunmuşdu. Onların bu hadisəni qabaqcadan görməsi sanki qadın hərəkatının iki mərhələsinin – Böyük fransız inqilabının azadlıq ideyaları dalğasında qadının «mən varam» dediyi birinci, ilkin; və qadının «mən işləyirəm, demək, mən varam» dediyi XIX əsrin sənaye inqilabı ilə başlayan ikinci mərhələsinin kəsişməsinə düşmüşdü. Bu, XIX

əsrdə yeni ideoloji və siyasi formalar, ideya və şüarları mənimsəyərək inkişaf edən feminizmin bünövrəsi rolunu oynadı.

Məşhur utopiyaçılar qender münasibətlərinin mahiyyətinə dair ictimai təsəvvürlərdə dönüş üçün əsas yaratdılar. Onlar qadının «təbii vəzifəsi» haqda mühakimələri şübhə altına almadan və həm də ona toxunmadan həmin çərçivədən çıxa bildilər. Artıq söhbət qadının «təbii» yox, daha çox sosial hüququndan, azadlıq, bərabərlik, qardaşlıq hüququndan gedirdi. Və bu nəzəri özül feminist ideya konstruksiyalarını möhkəmlətdi.

Sosial-siyasi fikir tarixində qender aspektləri marksistlərin əsərlərində də öz əksini tapmışdır. Hər şeydən əvvəl onlar əvvəllər fəhlə hərəkatında üstünlük təşkil edən antifeminist reaksiyanı aradan qaldıra bildilər. Bu reaksiyanın ən tipik nümayəndəsi fransız xırdaburjua sosialisti P.J.Prudon idi. O, kəskin şəkildə bərabərlik ideyasını, qadının ictimai həyatda iştirak etmək hüququnu rədd edirdi. 1848-ci ildə o, ictimai mənəviyyat və ədalət adından tanınmış fransız feministi Yanna Deruanın parlamentə – Milli məclisə seçki üçün namizədliyinin irəli sürülməsinə qarşı çıxdı. On il sonra isə, 1858-ci ildə Prudon özünün «İnqilabda və Kilsədə ədalət haqqında» çox cildli əsərini çap etdirdi ki, burada başqa şeylərlə birlikdə özünün antifeminist görüşlərini də əsaslandırmağa çalışırdı.

Marksistlər bütün bu ziddiyyətlər düyününü «qadın məsələsi» adlandırmış və ona öz cavabını vermişlər. K.Marksın xüsusi, qender problemlərinə həsr olunmuş əsərləri yoxdur. Lakin qadının ailə və cəmiyyətdə rolu və yerinə dair onun fikirləri çoxdur. Bununla bağlı olan əsər F.Engelsə məxsusdur və o "Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi« adlanır. Marks da birgə işlədikləri və Sen-Simonla Furyenin ənənələrini davam etdirən bu kitabın konsepsiyasına tərəfdar idi. Amma əvvəlkilərdən fərqli olaraq Marks və Engels kişi və qadın olmasından asılı olmayaraq fərdə deyil, kütlələrə xitab edirdilər – muzdlu əməyə cəlb olunmuş qadın kütləsinə, eyni zamanda onların muzdlu zəhmətkeş olan ərlərinə. Onlar izah edirdi ki, cinsi «sirr» arxasında insan nəslinin artımı münasibətləri – müəyyən «istehsal münasibətləri» gizlənir. Bu həm təbii, həm də sosial münasibətlərdir. Ənənəvi ailənin hər hansı forması sahiblik (tabeçilik) münasibətləri, hakimiyyət münasibətləri yaradır. Bu cinsin sosial münasibətləri – qender konsepsiyasının formalaşması yolunda atılan daha bir addım idi.

Yalnız istiladan və istibdaddan azad olan cəmiyyətdə kişi və qadın arasında bərabərhüquqlu münasibətlər mümkündür. Marksistlərin qadının azadlığı konsepsiyası öz dövrü, onun hadisə və normaları ilə eyni idi. Onun mərkəzində – qadın əməyi mövzusu dururdu. Bu faktın təzyiqi ilə emansipasiya – şəxsilik mövzusu marksizmdə əsasən sosial-iqtisadi hadisələr prizmasından araşdırılırdı. Elə onun da təsiri altında başqa hadisə – ənənəvi, artıq dağılmaqda olan ailənin yerinə proletariat sinfi şəklində «yeni» tipli ailə qoymaq təklifi ortalığa çıxırdı. Bu konsepsiya, şübhəsiz, demokratik «azadlıq, bərabərlik, qardaşlıq» ideyasına əsaslansa da, başlıca vurğu bərabərlik və qardaşlığa, sonra isə, onların həyata keçirilməsi vasitəsi ilə azadlığa vurulurdu.

Marksist feministlərin və, hər şeydən əvvəl, qadın istismarının xüsusi mülkiyyətin yaranması ilə əlaqələndirilməsi məsələsi sonradan tənqidə məruz qaldı. Belə ki, XX əsrdə qadın bərabərliyi ideyasının inkişafına yekun vurarkən fransız sosioloqu Y.Moren qeyd edirdi ki, qadın istismarı problemini sinfi təhlil kateqoriyasının köməyi ilə nəzərdən keçirmək onu sadələşdirmək deməkdir. Bu problem siniflərin yaranmasından qabaq, bəlkə də tarixin yaranmasından əvvəlki dövrdə meydana gəlmişdir və sosiolojidən daha çox antropososioloji xarakter daşıyır. Buna baxmayaraq həmin konsepsiya müəyyən tarixi məqamın ehtiyacına, xüsusən də başqa feminist ideyalarla birlikdə cavab verirdi. Və problem ondan ibarət idi ki, özlərinin əsas vəzifəsini dünyanı «izah etmək» yox, «dəyişdirmək» hesab edən marksistlər qadın azadlığı məsələsinə yanaşmalarını ən düzgün sayır və özlərini qadın bərabərliyinin bütün başqa tərəfdarlarından ayırırdılar.

Uzun illər boyu Qərbdə, hətta fransız filosof-ekzistensialisti Simona de Bovuar kimi nüfuzlu feministləri, patriarxat norma, ənənə, hakim münasibətlərini aradan qaldırmaq

üçün marksistlərin «qadın məsələsinin» həlli yolunu kifayət hesab edirdilər. Eyni zamanda özünün məşhur ikicildlik «İkinci cins» (1949) əsərində Bovuar »qadın məsələsi»nin marksist həlli ilə birbaşa mübahisəyə girməyərək hesab edirdi ki, sosializmin qələbəsi qadını azad etməyə, cəmiyyətdə onun vəziyyətini dəyişdirməyə qabildir və bu azadlığın qarantı olan kollektiv mübarizə problemindən vurğunu qadının subyekt olaraq təşəkkül tapması probleminə keçirirdi. Simona de Bovuar qeyd edirdi ki, məhz kişi fəaliyyətinin insan varlığının həmin fəaliyyəti təbiətin qara qüvvələri üzərinə qaldıran, təbiəti və deməli qadını da ram edən dəyər kimi formalaşdırdığı üçün adi şüurda kişi – yaradan, quran, subyekt, sahib kimi, qadın isə onun hakimiyyət obyekti, təbiət qüvvələrinin bir hissəsi kimi təsəvvür olunur. «Qadın doğulmurlar, qadın olurlar» tezisi də həmin bu mənfi rəyə qarşı istiqamətlənmişdi. Simona de Bovuar bu yolla qadında da kişidə olan imkan, iradə azadlığı, inkişaf qabiliyyətinin olması ilə bağlı bütün şək-şübhələri aradan götürməyə cəhd edirdi.

«İkinci cins» əsəri hələ də dünyanın yarandığı gündən bu günə qədər qadının vəziyyəti barədə yazılmış ən mükəmməl tarixi-fəlsəfi tədqiqatdır. Burada ötən illərin qadın hərəkatının nailiyyət və səhvlərinə yekun vurulmuş, bu hərəkatın gələcək inkişafı üçün bünövrə hazırlanmışdır. Kitabın mərkəzi ideyasının əsasında azad, öz şəxsi həyatını «bədəninin» mənimsənilməsindən başlayaraq «özününküləşdirməyə» qabil olan «avtonom» qadın şəxsiyyəti haqda ideya durur. Hər şeydən əvvəl feminizmin mühüm bir sosial qüvvə olmasına şübhə edən Bovuarın özünü qatı feminist hesab etməməsinə baxmayaraq, bu kitab Simona de Bovuara müasir feminizmin banisi və ən görkəmli nəzəriyyəçisi kimi şərəf gətirmiş oldu.

Hər halda Simona de Bovuarın əsəri feminizmin nəzəriyyə və praktikasının yayılmasına həlledici təsir göstərdi. Tanınmış fransız psixoloqu və feministi Elizabet Badinter bu proses barəsində yazırdı: «Simona de Bovuar milyonlarla qadını minillik patriarxat əsarətindən azad etdi... Qadınların bir neçə nəsli onun «mənim kimi edin; heç nədən qorxmayın; dünyanı fəth edin – o sizindir» müraciətinə cavab verdi. Öz sirli çubuğu ilə Simona de Bovuar əməyin seksual bölümünün təbiiliyi haqda ehkamı puç etdi. Və hər növdən olan konservatorlar ona qarşı çıxdı. Amma ötəni qaytarmaq mümkün olmadı. Heç kim bizi ailənin yeganə yerimiz, ev təsərrüfatı və analığın isə şəkk olunmayan, mütləq talemiz olduğuna inandıra bilməz. Biz – bugünkü feministlər, onun mənəvi övladlarıyıq. O bizə azadlığın yolunu açmışdır».

### 4. Azərbaycanın sosial-siyasi fikir tarixində siyasətin qender aspektləri

Azərbaycanda sosial-siyasi fikir tarixinin, huquqi sənədlərin, filosof və təfəkkürlərin qələmindən çıxmış əsərlərin tədqiqi göstərir ki, bilavasitə qender problemi, qender münasibətləri və xüsusən də qender və siyasət problemi burada öz əksini tapmamışdır. Müxtəlif mənbə və əsərləri araşdırarkən kişi və qadının cəmiyyətdə və ailədə rolu barədə yalnız təsadüfi xatırlamalara, ailə-nikah münasibətləri ilə bağlı fikirlərə rast gəlirik. Əsasən qadına münasibətdə ehtiram və hörmətə riayət etməyin vacibliyi göstərilsə də, əksər hallarda kişinin ən müxtəlif səviyyələrdə (şəxsi, dövlət, ictimai) rəhbər rolu barədə fikir üstünlük təşkil edir ki, bu da ailəvi dəyərlərin qorunmasını nəzərdə tutur. Belə ki, «Kitabi-Dədə Qorqud»-da kişi obrazı ailə başçısı kimi təsvir olunur, lakin bununla belə o müstəbid deyildir, əksinə – arvadına dərin hörmət bəsləyir və həmişə onun məsləhətini qəbul etməyə hazırdır. Həmçinin dastanda qadınlar ölkənin ictimai-siyasi həyatında, məsələn, düşmənə qarşı döyüşlərdə iştirak edir.

Bir çox mənbələr, xüsusən də qədim və orta əsrlərə aid olanlar kişinin cəmiyyətdə və ailədəki rəhbər rolunu qeyd edərək onun hüquqlarından başqa həm də xüsusi vəzifələrini qeyd edir (məsələn, Mxitar Qoşanın «Qanunamə»si, 1184-cü il).

Qədim mənbə olan atəşpərəstliyin kitabı «Avesta»da möhkəm ailənin yaranması vacibliyi, kişinin həyat yoldaşına və uşaqlarına qayğı göstərməsi vacib vəzifə kimi

qoyulur, cəmiyyətdə qadının tutduğu yer yüksək qiymətləndirilir, lakin onun rolu və vəzifələri şəxsi çevrə ilə məhdudlaşır. Avestada pak insan («aşavan») deyiləndə kişi («belə insanın evində çörək, süd, arvadı və uşaqları olmalıdır»), ədalətli hökmdar deyiləndə – düzgün, güclü, ali dini rəhbər, ideoloq, müdrik monarx, hərbi sərkərdə (o vaxtın reallığını nəzər alsaq, bu hökmdar, əlbəttə ki, yalnız kişi ola bilərdi) nəzərdə tutulurdu. Kişi – ailənin yaradıcısı, onun başçısıdır, lakin qadın da ailə xoşbəxtliyi üçün məsuliyyət daşıyır – o, əri üçün yaxşı arvad olmalı, pak fikrə, nəcib davranışa, yüksək mənəvi məziyyətlərə, daxili qüvvəyə və hətta gözəl niqtqə malik olmalıdır. Ədalətli ödəniş deyəndə «Avesta»da yalnız «ədalətli kişilər» yada salınırdı.

VIII əsrdə Azərbaycanın ərəblər tərəfindən işğalı ictimai və sosial-siyasi həyatın bir çox sahələrinə mühüm dərəcədə təsir göstərdi. İslam hələ VII əsrdə qadına tam maliyyə azadlığı və öz mülkiyyətindən kişinin nəzarətindən asılı olmayaraq istifadə etmək hüququ vermişdi. Peyğəmbər deyirdi ki, kişi və qadın eyni dərəcədə təhsil almaq imkanına malik olmalıdır. Qurana əsasən «qadın bəşəriyyətə həyat verən müqəddəs dövlət»dir; kişinin qadın qarşısında yerinə yetirməli olduğu öhdəlikləri var və əgər kişi qadının maddi tələbatını yerinə yetirə bilmirsə, bunu onun qohumları etməlidir. Quranda kişinin üzərinə qayda və sabitliyi təmin etmək vəzifəsi qoyulur; o, evin və ailənin başçısıdır. Quran qadına qarşı zorakılığa, onunla kobud münasibətə qarşı çıxır. İslama görə, qadın da kişi kimi alış-satış hüququna, əmlakını icarəyə vermək, şahidlik etmək, və hətta seçkilərdə iştirak etmək, vuruşmaq hüququna malikdir. İslam dini qadının cəmiyyətdəki mövqeyini kökündən dəyişmək, ona hüquqlar vermək, qadının islamdanqabaqkı ərəb qəbilələri üçün xas olan qeyri-bərabər və alçaldılmış vəziyyətini aradan qaldırmağı nəzərdə tutur, lakin praktikada islamın cinslərin sosial vəziyyətinə dair müddəalarının əksəriyyəti reallaşmamış qalır, çox zaman isə səhv şərh olunurdu.

Azərbaycanda ərəb istilası və burada islam dininin yayılması kişi və qadın arasındakı mövcud sosial rolların bölüşdürülməsi praktikasına köklü dəyişiklik gətirmədi və qadının hüquqi və siyasi vəziyyətinin yaxşılaşmasına səbəb olmadı ki, bu da mədəni, tarixi, sosial-iqtisadi xarakter daşıyan bir çox səbəblərdən irəli gəlirdi. Elə buna görə də dahi Nizami Gəncəvinin yaratdığı əsərlərdə qadın barəsində deyilmiş sözlər olduqca liberal və mütərəqqi səslənirdi. Onun poemalarında qadın müstəqil, işgüzar, azaddır, cəmiyyətdə aparıcı qüvvə ola bilir, mənəviyyat və namusun qoruyucusudur, «mənən pak varlıqdır», ona mərdlik, düzgünlük, hazırcavablıq, iti ağıl kimi əlamətlər xasdır, və o – ailənin yaradıcısıdır.

Nizaminin əksi olaraq digər Azərbaycan alimi Nəsirəddin Tusi (1201-1274) qadına münasibətdə mühafizəkar mövqe tuturdu. O, qadını çadra altında saxlanmalı qul ilə müqayisə edirdi. Belə fikir qadının cəmiyyətdə vəziyyəti və roluna olan baxışları əks etdirirdi və həmin münasibət hələ bir neçə əsr ərzində ictimai-siyasi həyatda üstünlük təşkil etmişdi.

Problemə keyfiyyətcə yeni baxış yalnız XIX əsrdə maarifçilərin, filosof və yazıçıların – Q.Mahmudbəyovun, S.Qəniyevin, Zərdabinin, F.Köçərlinin, C.Məmmədquluzadənin və, xüsusən də, M.F.Axundovun əsərlərində öz əksini tapdı. Axundov kişi və qadınların bərabərlik ideyasını olduqca fəal müdafiə edirdi. O, «nədən hüquq bərabərliyi prinsipi istisna olaraq kişilərə aiddir? Hansı əsasla şəriət qadını əbədi istismara məhkum edir, ömürboyu onları bədbəxt edir, həyatın rifahından məhrum edir?» deyirdi.

XX əsr və Azərbaycanın başına gələn sosial və siyasi kəşməkeşlər, birinci onilliklərin tarixi hadisələri cinslərin bərabərliyi probleminə və hər şeydən əvvəl kişi və qadının cəmiyyətin siyasi həyatında iştirakı probleminə olan baxışları keyfiyyətcə yeniləşdirdi. Azərbaycan qadını səs vermək, seçilmək hüququ qazandı, onun tədricən siyasi fəaliyyətə, hakimiyyətə cəlb olunması üçün yeni imkanlar yarandı.

### 5. Müasir dövrdə cəmiyyətin inkişafında qender siyasətinin həyata keçməsi

Yeni sosial qaydaya keçid bu şərtlə mümkündür ki, qender ölçüsü təhsil və tərbiyədən ictimai şüura doğru irəliləsin. Qender ölçüsünun strateji məqsədi cinslər arasında bir-birini anlama mədəniyyətinin dəyişdirilməsi iyerarxialı yanaşmanın tərəfdaş yanaşması ilə əvəzlənməsi, dövlətin və cəmiyyətin ideologiyasına sülhseverlik, yaradıcılıq kimi «qadın» dəyyərlərinin daxilidir.

Demokratik islahatlar kursunu götürərək, cəmiyyət bizə irsən qalan patriarxal ideya, prinsiplər, qanunverici normaları tənqidi dərk etməyə cəhd edir. Bununla əlaqədar qanunların, normativ aktların, müxtəlif beynalxalq sənədlərin qəbulu, konfrans və seminarların təşkili və keçirlməsi dünya ictimayyəti tərəfindən həyata keçirilməsi üçün üsüldur.

Qadınların vəziyyətinə dair keçirilmiş 4 ümumdünya konfransları BMT tərəfindən son 25 ildə qender bərabərliyi probleminin qoyulması, siyasətdə hər iki cinsin nümayəndələrin iştirakı dünya ictimayyətinin diqqət mərkəzində idi. Qender bərabərliyi uğrunda mübarizə BMT-nin 1945-ci ildə əsasının qoyulması zamanı başlanğıc vəziyyətində idi. Birinci üç illik dövr ərzində BMT-nin qadın probleminin həllinə dair iş ilk növbədə qadınların yuridik və vətəndaş hüquqlarının müəyyənləşməsinə və qadınların dünya üzrə vəziyyəti haqqında məlumatlarının toplanmasına istiqamətlənmişdi.

Qenderbərabərliyi uğrunda mübarizənin ikinci mərhələsi BMT-nin təşəbbüsü ilə qadınların vəziyyətini yaxşılaşdırmağa doğru strateqiya və planlarının hazırlanmasına doğru dünya konfransların çağırılması oldu. İlk ümümdünya konfransı 1975-ci ildə Meksikada çağırılmışdır. Konfrans iştirakçıları gələn 10 il üçün Fəaliyyət planı qəbul etmişdilər.

İkinci ümümdünya konfransı – 1980-ci ildə Kopenqaqen şəhərində çağırılmışdı. Bir il bundan qabaq isə BMT tərəfindən, 1979-cu ildə, «Qadınlara qarşı hər bir ayrı-seçkililiyin ləğvi» Konvensiya qəbul olunmuşdu. Konfransda isə Fəaliyyət Proqramı qəbul olunmuş və qadınların yuridik hüquqları və onların düzgün istifadə edilməsindən müxtəlif faktlar qeyd olunub.

Qender bərabərliyi uğrunda hərəkat üçüncü ümumdünya konfransında dünya tərəfindən dəstəkləndi (Nayrobi, 1985).

Pekində 1995-ci ildə keçirilən dördüncü konfrans qender bərabərliyi uğrunda yeni bir mərhələ oldu. Konfrans iştirakçıları Deklarasiya (Bəyənnamə) və Fəaliyyət Platformasını qəbul edərək qadınların XXI əsrdə inkişafa doğru yoluna təkan verdi.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYATIN SİYAHISI


1. Azərbaycanda qender tədqiqatları. – B., 2002
2. Sosial və humanitar fənlərə qender nəzəriyyəsinin inteqrasiyası (Konfransın materialları). 2001
3. Naxçıvanlı A. Qadın liderliyi haqda bəzi mülahizələr // Qenderşünaslıq, 2000, №4
4. Абубикирова Н.И. Что такое «гендер»? // Общественные науки, 1996
5. Антология гендерной теории. – М., - Минск, 2000
6. Гидденс Э. Социология// Эдиториал УРСС, 1999
7. Кампания за достижение равенства между мужчинами и женщинами и улучшение положения женщин. – М., 2001
8. Ковалева Т.И., Иванчук Н.В. Женщины: ресурсы политического поведения // Социологические исследования, 1995, № 7
9. Кочкина Е. Парадоксы всемирной истории // WE/ МЫ. Диалог женщин. Спецвыпуск 2000
10. Мэнсбридиж Дж. Женщины, правление и общее благо // США: экономика, политика, идеология, 1992, № 3
11. Пугачев В.П.. Соловьев А.И. Введение в политологию. 4-е изд., перераб.и доп. – М., 2002

12. Рзаев А. История политических и правовых учений в Азербайджане. От истоков до XX века. – Б., 2000
13. Симона де Бовуар. Второй пол. - М., 2001
14. Уоллстонкрафт М. В защиту прав женщин // Феминизм: проза, мемуары, письма. – М., 1992
15. Чикалина И. Феминистская перспектива в политической теории и на практике // Посиделки, 1999, № 10
16. Jennifer Hornsby. The Oxford Companion of philosophy. – N.-Y., 1995
17. Karen Offen Reclaiming the European Enlightement for Feminism. CEU, 2000
18. Rubin Gayle. The traffic in women: Notes on the “political economy” of sex / In Toward an Antropology of women/ - N.-Y., 1975
19. http://demo.interpro.ru/content/win/books/gender/7.htm
20. http://www.owl.ru/win/events/edc1996/c-aivaz.htm
21. http://www.owl.ru